# Futbol öz evinə arxa qapıdan gəlir



**Avro–2020-nin Danimarka millisi ilə İngiltərə yığma komandası arasında Londonda keçirilən yarımfinal matçı bəlkə də krallığın 1966-cı il Dünya çempionatında qazandığı qələbə zamanı yaranan və bu günə qədər davam edən mübahisələrdən daha çox səs-küyə səbəb olacaq. Amma bu haqda bir qədər sonra. Birinci artıq tarixə çevrilən faktlardan söhbət açaq.**

Adətən İngiltərəni turnirlərin favoriti və futbolun yaradıcısı kimi qəbul etsələr də, onların buna haqqını təsdiq edən əsasları son dərəcə kasaddır. 1966-cı ildə Londonda Dünya çempionatında qələbə. Bununla da hər şey bitir, hətta Dünya və Avropa çempionatlarının finalına belə çıxa bilməmişlər. Onlardan fərqli olaraq Danimarka 29 il əvvəl Avropa çempionatının qalibi olub.



Buna baxmayaraq, bu gün İngiltərənin demək olar, bütün futbol azarkeşləri küçə və meydanlarda "Football's coming home" ("Futbol evə qayıdır") mahnısını daha gur oxumağa başlayıb. Avro – 1996-ya yazılan bu mahnı bu gün yeni həyat qazanıb və İngiltərənin indiki milli komandasını, indiyə qədər bütün ölkənin məhəbbətlə xatırladığı Alan Şirerin və Qaskoninin oynadığı komanda ilə sıx bağlamağa başlayıb. Lakin bu mahnının daha ürəklə oxunması üçün İngiltərə Danimarka səddini keçməli və yenidən "Uembli"də finala çıxmalı idi. Amma nəyin bahasına olur-olsun yox, sadəcə danimarkalılardan daha üstün və möhtəşəm oyunu ilə bunu etməli idi...

Matçın ilk dəqiqələrindən hər iki komanda qələbəyə son dərəcə iddialı oyun nümayiş etdirməyə başladı. Birinci hissənin yarısında artıq Sautqeytin yetirmələri rəqibin qapısına yol tapmaq üçün demək olar ki, uzun ötürmələri, cinahlardan və mərkəzdən hücumları sınaqdan keçirdilər. Qol arzusu reallaşmırdı. Qapı qarşısına hava ötürmələrini də uca boylu və cüssəli danimarkalılar asanlıqla dəf edirdilər.

Əslində oyun öncəsi də əsas suallardan biri belə idi ki, Danimarka millisi rəqiblərinə çəkinmədən pressinq edə biləcəklərmi? Danimarkalılar oyunçuların yüksək mövqedə pressinqdən imtina etmədilər, lakin mərkəz müdafiəçilərini deyil, kənar və dayaq müddafiəçilərini hədəf seçdilər. Buna görə də ingilislərin hücum qrupu oyundan, demək olar, tamam kənarda qalmışdı. Sterlinq, Keyn və Saka danimarkalı forvardlar Breytueyt, Dolberq və Damsqordan daha az oyunda görünürdülər. Hətta bu vaxt ərzində qapıçı Pikford da çox kobud yanlış ötürmələri ilə yadda qaldı.

Nəticədə ilk qolu danimarkalılar vurdular. Skandinavları irəli çıxaran bu qolu uzaqdan heyrətamiz cərimə zərbəsilə Damsqor vurdu. Bu zərbə əfsanəvi Messinin cərimə zərbələrini xatırlatdı. Pikford müdafiəçilərin başı üzərindən qapıya sancılan zərbəni dəf etməkdə aciz qaldı. Bu, "Uembli"də vurulan həqiqətən nadir bir top idi. Çünki Avro – 2020-də həm cərimə meydançasından vurulan birinci top idi, həm də bu turnirdə ingilislərin qapısından keçirilən ilk qol idi. Lakin buna qədər qolkiper Pikford artıq Qordon Benksin 1966-cı ildə müəyyənləşdirdiyi "əbədi" rekordu təkrarlamışdı.

Damsqorun bu heyrətamiz qolu elə bir məqamda baş verdi ki, komandalardan heç biri oyuna nəzarətdə üstün deyildi. Məhz bu zərbədən sonra oyunun xarakteri də dəyişdi. Hesab açılmamışdan topa sahibolmada nəticə 55 faizin 45 faiz nisbətində İngiltərənin xeyrinə idi. Rəqiblərin pressinqi isə meydan sahiblərinə təhlükəli sahələrə müdaxiləyə imkan vermirdi. Qoldan sonra "şirlər"in topa sahibolma faizi 70-ə qalxdı. Danimarkalılar artıq az qala qapı xəttinin qarşısında mübarizə aparır və müdafiə olunurdular.

İngilislərin oyunundan aydın görünürdü ki, qol onları zərrə qədər də çaş-baş salmayıb. Onlar dərhal təşəbbüsü ələ alıb, iki təhlükəli vəziyyət yarada bildilər. Rahim Sterlinq birinci vəziyyəti boşa versə də, danimarkalıların kapitanı Keyer ikinci vəziyyətdə ingilislərin "köməyinə" çata bildi və Sakanın qapı önünə sürətli zərbəsini Rahimdən qorumaq istərkən, topu öz qapısına vurdu. Damsqorun qolundan sonra sükuta qərq olmuş ingilis azarkeşlərin sevinc dolu qışqırıqları bir andaca stadionu başına aldı. Danimarka 1, İngiltərə 1.

İkinci hissənin ilk dəqiqələrindən sonra, həqiqətən elə bir təəssürat yarandı ki, bu, İngiltərə millisinin Avro–2020-də ən baxımlı və güclü oyunudur. Şmeyxel Makquayrın başla vurduğu 100 faizli qol zərbəsini Şmeyxel heyrətamiz sıçrayışla qapıdan çıxardı, Pikford Dolberqin çox çətin bir zərbəsini dəf etdi, bundan sonra Danimarka millisinin qapısına az qala ikinci avtoqol vurulacaqdı. Kifayət qədər qol vəziyyətləri yarandı, lakin qol yox idi.

Yeri gəlmişkən, Danimarka millisinin baş məşqçisi Kasper Yulmandın matçın ən gərgin və həlledici məqamlarında–67-ci dəqiqədə oyunda ən fəal və təhlükəli oyunçular olan Dolberqi və Damsqoru əvəzləməsi mənim üçün anlaşılmaz oldu. Axı komandanın əsas qol silahları olan bu iki futbolçunu oyundan çıxarmaqla məşqçi nə etməyi planlaşdırırdı?

Danimarka yenə qapısının qarşısına çəkilib sədd qurmamışdı. Əksinə pressinqini davam etdirir və hətta rəqibi bəzi məqamlarda qapısına sıxışdırırdı. Cəsarətli oyun olsa da, birinci hissədəki oyuna bənzəmirdi.

Matçın başa çatmasına 15 dəqiqə qalmış oyun müəyyən qədər öz tempini itirdi. "Uembli"də sanki xəbərdarlıq zəngi çalınmışdı: "Riskə getmək vaxtı deyil!" Komandalardan gah biri, gah digəri topa sahibolmada üstünlüklərini nümayiş etdirirdilər. Kəskin hücumlar və əks-hücumlar yox idi. İngilislər də qapıya cəmi iki zərbə endirə bildilər. Beləcə qarşılaşma overtayma keçid aldı.

Əlavə vaxtda ingilislər rəqibləri əməlli başlı sıxışdıra bildilər. Overtaymda Danimarka millisi sanki "söndü". Meydan sahibləri matçın taleyinin 11 metrlik zərbələrlə həll edilməsinə keçməməsi üçün son dərəcə ciddi səy göstərir, meydanda hökmranlığı ələ alıb təhlükəli vəziyyətlər yaradırdılar. Əlbəttə komanda qələbəyə oynayırdı. Rahim Sterlinq rəqibin müdafiəsini çaxnaşmaya sala bilirdi. Lakin bu, müdafiəçi Mehle yaxınlaşan məqamdaca Sterlinqin özünü yerə vurması faktını inkar etmir. İngiltərədə belə məqamları "yumşaq" adlandırırlar, Rahimin yıxılması da yumşaq idi, hətta uşaq yeməyindən də yumşaq.

Niderlandlı baş hakim videoassistentə müraciət etmədən dərhal 11 metrlik nöqtəni göstərir. Etiraf etmək lazımdır ki, son dərəcə mübahisəli qərar idi. Bu haqda bir qədər sonra daha etibarlı və səriştəli mütəxəssislərin fikri ilə aydınlıq gətirəcəyik...

İngilislərin əsas "bombardiri" Harri Keyn səhnəyə çıxır və ilk cəhdini qapıçı Şmeyxel dəf edir. Özünü topa çatdıran ingilis forvard təkrar zərbə ilə topu qapıdan keçirir. Tribunlar sevincdən əməlli başlı "ağıllarını itirirlər". "Uembli"nin belə təntənə yaşaması son 55 ildə ilk dəfə idi. Göz yaşlarına hakim ola bilməyən azarkeşlərin ekranlara çıxarılan görüntüləri insana elə sirayət edir ki, bir anlıq niderlandlı hakim Danni Makkelinin yanlış qərarını belə adam unudur.

Bu qol oyunda bütün intriqanı öldürür. Doğrudur, danimarkalıların hesabı bərabərləşdirib matçı 11 metrlik zərbələrlə yekunlaşdırmasına kifayət qədər vaxtı var idi. Meydan sahibləri üçün də əks-hücumlara geniş imkanlar yaranırdı. Elə bu məqamda Sautqeyt bəlkə də Avropa çempionatı tarixinin ən utancverici əvəzləməsini edir. O, 30 dəqiqə əvvəl meydana çıxmış sağlam, çevik və əla oyun nümayiş etdirən Qrilişin əvəzinə meydana müdafiəçi Trippiri çıxarır.

Niyə axı Qrilişi? Əgər müdafiə xarakterli əvəzləmə etmək lazım idisə, iki saat oynayan, yorulub əldən düşmüş Keyni və Sterlinqi oyundan çıxarmaq olardı, oyuna təzə başlayan futbolçunu yox. Xəcalət, verici bir əvəzləmə...

Beləliklə, İngiltərə 55 ildə ilk dəfə finala çıxdı və tarixdə ilk dəfə Avropa çempionatının qalibi olmaq şansı əldə etdi. Bu, əlbəttə, böyük nailiyyətdər. Lakin "Uembli"də İtaliyaya uduzmaq komanda üçün böyük faciə olar. Bu baş verəcəyi halda, ingilis xalqının bu yara ilə növbəti finala qədər daha yarım əsr gözləməsini təsəvvür etmək belə qorxuludur.

## Hakimin mübahisəli qərarı futbol dünyasını qarışdırdı

Builki Avropa çempionatı, ənənəvi yaşayış tərzimizi dəyişməyə məcbur edən COVID–19 pandemiyasının məhdudiyyətlərə məhkum etdiyi milyonlarla insana sanki bəşər övladının yaşayışının davam etdiyini göstərirmiş kimi, milyonlarla azarkeşə sevinclə yanaşı, son dərəcə böyük inam və ümid verdi. Doğrudur, bu turnirdə komandalarının uduzmasından məyus olanlar da çox oldu, lakin futbol bu insanlara da həyəcan dolu anlar yaşatdı.

İngiltərə – Danimarka matçında niderlandlı hakim Danni Makkelin oyunun 103-cü dəqiqəsində Sautqeytin komandasının xeyrinə verdiyi 11 metrlik cərimə zərbəsi qərarına sevinən isə təkcə ingilis azarkeşləri oldu, desəm, yanılmaram. Ancaq onların da içində ədalət hissini itirməyən, bəlkə daha çox futbol oyununa böyük məhəbbəti üzündən bu yanlış qərarı kəskin tənqid edənlər az deyil.

Əvvəla, ondan başlayaq ki, Rahim Sterlinq sağ cinahdan rəqibin cərimə meydançasına hücuma keçərkən meydanın elə bu hissəsində daha bir top var idi. Qaydalara görə bu səbəbdən hakim dərhal oyunu dayandırmalı idi. Lakin dayandırmadı və buna əhəmiyyət də vermədi. Sterlinq də cərimə meydançasına hücum çəkdi və 11 metrlik cərimə zərbəsi qazandı.

İkinci, bu məqamda Rahim Sterlinqə danimarkalı müdafiəçinin heç bir toxunuşu olmamışdı və ingiltərəli futbolçu cərimə zərbəsi qazanmaq üçün özünü yerə yıxdı. Bu təkcə mənim fikrim olsa, bəlkə də qəzetin səhifəsinə çıxarmazdım. Amma bu bəlkə yüzlərlə futbol mütəxəssisinin və ekspertlərin fikridir. Əslində hakimin bu qərarına ilk reaksiyanı danimarkalılar verib. "Mançester Yunayted" klubunun və Danimarka millisinin sabiq qapıçısı Peter Şmeyxel deyib: "Açıq-aydın hakimin səhvidir. Fikirləşirəm, bu 11 metrlik zərbə qərarı ilə bağlı mübahisələr çox olacaq. Referi ciddi səhv etdi. Mən çoxlarının bu haqda nə düşündüklərini əla bilirəm. Necə olur-olsun, Danimarkanın turnirdəki çıxışı ilə qürur duyuram".

Mübahisəli qərara və İngiltərənin qələbəsinə kölgə salan olaya "Roma" klubunun hazırkı məşqçisi və tanınmış



futbol mütəxəssisi Joze Maurinyo deyir: "Bəli, əla matç idi, lakin mən inanmıram ki, siz mənim mövqeyimi eşitmək istəyəsiniz. Mən yalnız gördüyümü söyləyirəm.Bu heç bir halda penal deyildi. İngiltərə əla oynayırdı və qalib gəldi, onlar buna layiq idilər. İngiltərə fantastik oynadı, lakin mən hesab edirəm bu penal deyildi...

Mən bir futbol adamı kimi İngiltərənin qalib gəlməsinə sevinirəm. Lakin məni yanlış anlamayın.. Amma bir futbol adamı, mən çox məyusam ki, belə bir 11 metrlik cərimə zərbəsi təyin etdilər...

Mən Danimarkanın baş məşqçisini gördüyü işə görə təbrik edirəm, lakin İngiltərənin qələbəni başqa yolla əldə etməsini məqbul hesab edərdim".

Bu fikri dönə-dönə "Talk Sport"-un efirindən səsləndirən təkcə Joze Mourinyo olmadı. İngiltərənin futbol ulduzları və mütəxəssisləri də hakimin düzgün qərar vermədiyini bildirirlər. Məsələn, İngiltərə millisinin keçmiş müdafiəçisi Maykl Ouen deyib: "Əmin deyiləm ki, bu 11 metrlik cərimədir. Amma kimin nə işinə qalıb?". Maraqlı cavabdır deyilmi? Lap bir çox hallarda yəhudi fəlsəfəsindəki bu fikri xatırladır: "Məqsəd vasitəyə bəraət qazandırır". Amma belə yanlış vasitəyə Avropa mediası da bəraət qazandırmır.

İspaniyanın "Marca" nəşri belə bir başlıq dərc edib: "İngiltərə Avronun finalına Danimarka üzərində mübahisəli qərarla çıxdı". Fransanın "L'Équipe" nəşri də kəskin münasibətilə seçilir: "Danimarka millisinin xoş təsir bağışlayan müdafiəsində boşluq tapmamaq ona gətirib çıxardı ki, İngiltərə, səxavətli söyləməyim deyə, bildirirəm ki, şübhəli 11 metrlik cərimə zərbəsi hüququ aldı. Videoassistent hökmü təsdiq etdi və Keyn özünün turnirdəki 4-cü qolunu vurdu... "Uembli" rahat nəfəs aldı".

"La Gazzetta dello Sport" isə daha ironiya və sarkazmla bu fakta münasibət bildirir: "Keynin vurduğu zərbəni Şmeyxel dəf etdikdən sonra Futbolun Allahları Harriyə yardım əli uzatdılar. Sterlinq Mehlenin yüngülcə toxunuşundan sonra yıxıldı, hakim fit verdi, VAR təsdiq etdi, lakin şübhələr qaldı".

Belə fikirlər hazırda Avropa mediasında kifayət qədərdir. Lakin çox hörmət bəslədiyim futbol mütəxəssislərindən biri, dünya futbolunun tanınmış simalarından olan, keçmiş məşqçi və hazırda UEFA məmuru olan Arsen Vengerin "Get French Football News"a söylədiyi fikirlə yazımı tamamlamaq istəyirəm Venger deyib: "Bu penal deyil. Başa düşmürəm, niyə belə vəziyyətlərdə referi videoassistentdən istifadə etmir və gedib həmin məqamın təkrarına monitorda baxmır. Belə məqamlarda referi qərarına tam əmin olmalıdır".

Beləliklə bu qarşılaşmada İngiltərə komandasının qazandığı mübahisəli qələbədən sonra yalnız onu demək olar ki, futbol öz evinə arxa qapıdan qayıdır.

**İlqar RÜSTƏMOV,**
**"Xalq qəzeti"**